*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 22 iyul 2020-ci il № 43 (2461) Qiymətı 30 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da Ceyhun Bayramovu Xarici İşlər naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib.*



Prezident ölkəmizin xarici siyasətində əsas rol oynayan prioritet istiqamətlərdən söz açıb, xarici nümayəndəliklərdə görülən işlərin ciddi təhlil olunmasını və səfirliklərin işinin səmərəlilik əmsalının müəyyən edilməsini tövsiyə edib. Xarici kütləvi informasiya vasitələri ilə sıx təmaslar qurulmasından da danışan ölkə başçısı dünyanın bütün dövlətləri ilə normal dostluq və tərəfdaşlıq münasibətlərinin formalaşdığını qeyd edib. Dövlət başçısı onu da bildirib ki, ölkəmiz üçün beynəlxalq təşkilatlar ilə əlaqələr strateji xarakter daşıyır.

Qəbul zamanı dövlət başçısı diplomatik fəaliyyət zamanı əsas diqqətin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yönəldilməsini vurğulayıb:

- Bildiyiniz kimi, biz hazırda Qoşulmama Hərəkatının sədriyik və bu sədrliyi 120 ölkənin yekdil qərarı ilə qazanmışıq. Bu sədrliyi öz üzərimizə götürəndə mən demişdim ki, bu, formal sədrlik olmayacaqdır. Biz beynəlxalq təşkilatlarda Qoşulmama Hərəkatına üzv ölkələrin maraqlarını, eyni zamanda, beynəlxalq hüququ, ədaləti dəstəkləyəcəyik və bunu əməli işlərdə göstərdik. Pandemiya dövründə bizim təşəbbüsümüzlə Qoşulmama Hərəkatının, eyni zamanda, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşləri keçirildi. Biz Qoşulmama Hərəkatına üzv ölkələrə həm birbaşa, həm də Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə humanitar yardım göstərdik. Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsinin təşəbbüskarı biz olmuşuq və bu təşəbbüsə bildiyiniz kimi, 130-dan çox ölkə qoşuldu. Hesab edirəm ki, bu, bizim növbəti siyasi uğurumuzdur.

Əlbəttə, fəaliyyətinizin əsas hissəsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə istiqamətləndiriləcək. Bu, bizim üçün əsas məsələdir, bu, milli məsələdir. Son illər görülmüş tədbirlər nəticəsində bütün beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz mövqeyini ortaya qoyublar. Əgər münaqişə getdiyi dövrdə BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edibsə, ondan sonrakı dövrdə bütün digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul ediblər. ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, Qoşulmama Hərəkatı, NATO və digər təşkilatlar. İki il bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanmış "Tərəfdaşlıq Prioritetləri" sənədində də ölkəmizin ərazi bütövlüyü, suverenliyi və sərhədlərin toxunulmazlığı ilə bağlı xüsusi bənd var. Yəni, hüquqi baza tam təmin edilib.

O ki qaldı, münaqişənin həllinə, bizim mövqeyimizdə, qeyd etdiyim kimi, heç bir dəyişiklik ola bilməz. Dağlıq Qarabağ bizim tarixi torpağımızdır və ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bu, birmənalıdır və heç bir ölkə qondarma "Dağlıq Qarabağ respublikası"nı tanımayıb. Orada bu yaxınlarda keçirilmiş qondarma "seçkilər" bunu bir daha təsdiqlədi. Çünki bütün aparıcı dövlətlər, qonşu dövlətlər, aparıcı beynəlxalq təşkilatlar bu "seçkilərin" tanınmaması ilə əlaqədar bəyanatlar vermişlər.

O ki qaldı, danışıqlara, mən bir daha demək istəyirəm ki, biz imitasiya naminə danışıqlar aparmaq, mənasız videokonfranslar keçirmək fikrində deyilik. Bunun mənası olmalıdır. Minsk qrupunun işi çox fəal olmalıdır və onların mandatı çərçivəsində təkcə təmas xəttində, yaxud da ki, dövlət sərhədində atəşkəsin təmin edilməsi məsələsi yox, mahiyyət üzrə danışıqlar aparılmalıdır və bunun üçün artıq uzun illər ərzində formalaşmış baza var. Ancaq Ermənistan öz destruktiv addımları, qeyri-konstruktiv bəyanatları, sərhəddə və təmas xəttində törətdikləri hərbi cinayətləri ilə bütün bu danışıqlar konstruksiyasını məhv edir. Ermənistan danışıqlar formatını dəyişmək, danışıqların mahiyyətini pozmaq istəyir. Yəni, faktiki olaraq bu gün Ermənistan danışıqlar prosesini dağıdır və bunu hər kəs görür. Sadəcə olaraq, Ermənistan rəhbərliyinin açıqlamalarına fikir vermək kifayətdir. Onların hərbi rəhbərliyi bizi hədələməyə çalışır. Bizi yeni torpaqların işğalı ilə hədələmək istəyir. Ancaq bunlara bu günlərdə verilən dərs hesab edirəm ki, uzun müddət onların yaddaşından silinməyəcək. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Azərbaycan xalqının səbrinin həddi var. Ona görə danışıqlar mahiyyət üzrə aparılmalıdır. Əgər biz görsək ki, bu danışıqlar əhəmiyyətsizdir, onda buna uyğun şəkildə öz addımlarımızı da atacağıq və bəyanatlarımızı da verəcəyik.

**AZƏRTAC-ın materialları əsasında**

## Azərbaycan Prezidenti Tovuz rayonunun atəşə tutulması nəticəsində dəymiş ziyanın aradan qaldırılması ilə bağlı Sərəncam imzalayıb

*İyulun 20-də Prezident İlham Əliyev Azərbaycan Respublikasının Tovuz rayonunu Ermənistan Respublikası silahlı qüvvələrinin intensiv atəşə tutması nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı Sərəncam imzalayıb.*

AZƏRTAC xəbər verir ki, sənəddə Ermənistan silahlı qüvvələrinin iyulun 12-dən başlayaraq Ermənistan və Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində qəsdən və hədəflənmiş şəkildə yaşayış məntəqələrini iriçaplı silahlardan və ağır artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə ciddi ziyan dəydiyi bildirilib.

Sərəncamda qeyd olunub ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının Tovuz rayonunu intensiv atəşə tutması nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini İqtisadiyyat Nazirliyi Fövqəladə Hallar Nazirliyi ilə birlikdə qısa müddətdə təmin edib bu barədə məlumatları Nazirlər Kabinetinə təqdim etsin.

Nazirlər Kabinetinə isə dəymiş ziyanın aradan qaldırılması, zərər vurulmuş obyektlərin tam bərpası və tikinti işlərinin sürətlə həyata keçirilməsi üçün tələb olunan maliyyə vəsaiti barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb.

# Mehriban Əliyeva: Hər birimizin borcu Azərbaycanın mövqeyini müdafiə etməkdir

## Nəinki döyüş meydanında, həm də kompüter qarşısında

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ermənistanın Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi hərbi təxribatlarla bağlı xalqımıza müraciət edib. AZƏRTAC müraciəti təqdim edib.*



"Hörmətli həmvətənlər!

Son günlər baş verən hadisələr ölkəmizin hər bir vətəndaşını narahat edir. İşğalçının növbəti təxribatına dərhal layiqli cavab verildi.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Tanrıdan yaralı əsgərlərimizin tezliklə sağalmasını diləyirəm. Tanrı hər bir Azərbaycan döyüşçüsünün həyatını və sağlamlığını qorusun.

Bu günlərdə bizim hamımızı emosiyalar bürüyür. Emosiyalar çoxdur. Hüznlə və şəhidlərin işıqlı xatirəsinə ehtiramla yanaşı, ən güclülərindən biri qürur hissidir. Azərbaycan Ordusunun döyüş qabiliyyətinə, qəhrəman oğullar yetişdirən analara görə qürur. Vətəndaşlarımızın vətənpərvərlik hissinə, ilk çağırışdan Vətənin müdafiəsinə qalxmağa hazır olan gənclərə və on minlərlə könüllüyə görə qürur. Ölkəmizdən kənarda öz birmənalı mövqeyini bildirən, dövlətimizi və ordumuzu dəstəkləyən minlərlə azərbaycanlıya görə qürur hissi.

Hər kəsi saran birlik, ruh yüksəkliyi nümayiş etdirmək və tarixi həqiqətin təntənəsi, - Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün hər bir addıma hazır olmaq, - bizim müqəddəs mübarizəmizdə güclü və təsirli vasitədir.

Bu günlər ərzində əsl vətəndaş mövqeyi nümayiş etdirən hər kəsə minnətdaram.

Əziz qardaşlar və bacılar!

Yüksək vətənpərvərlik və mübarizlik əhval-ruhiyyəsi fonunda bu gün bizim hər birimizdən dözümlü, sayıq və təmkinli olmaq tələb olunur. Hər an unutmamalıyıq ki, artıq uzun illərdir yaşadığımız qarşıdurma şəraiti bilavasitə hərbi əməliyyatlar bölgəsini deyil, həm də informasiya məkanını əhatə edir. Sosial şəbəkələr dövründə informasiya müharibələrinin miqyası, onların hadisələrin gedişatına təsiri qarşıdurmanın nəticəsinə təsir edən olduqca mühüm amilə çevrilirlər.

Müasir informasiya platformaları düşmən qüvvələr, bədxah insanlar, bəzən sadəcə paxıl və qərəzli dairələr tərəfindən "feyk"lərin, saxta, təxribat xarakterli materialların yayılması üçün vicdansızcasına istifadə olunur. Məqsəd - çaxnaşma, nifaq salmaq və daxili "cəbhə" yaratmaq, düşkünlük və məğlubiyyət əhval-ruhiyyəsini artırmaqdır.

Saxta profillərdən və birdəfəlik işlətmə üçün nəzərdə tutulan telefon nömrələrindən tutmuş istifadəçilərin görmə, eşitmə, emosional qavrayışına psixoloji təsir üsullarından istifadəyədək geniş alətlər arsenalı işə düşür. Bir sözlə, insan qəlbinin ən kövrək tellərinə toxunmaq üçün ən çirkin vasitələrə əl atılır. Ermənistanın işğalçılıq siyasətini dəstəkləyən qüvvələr öz məqsədlərini güdərək "müharibədə bütün vasitələr yaxşıdır" prinsipi ilə hərəkət edirlər.

Çox sevindirici haldır ki, Azərbaycanın internet istifadəçilərinin əksəriyyəti təxribata uymur, yalan və böhtanı ifşa edir, ağı qaradan seçməyi bacarır və münaqişənin kökləri haqda həqiqətlərdən bəhs edir. Axı bizim əsas vəzifələrimizdən biri ədaləti tələb edən haqq səsimizi dünya ictimaiyyətinə çatdırmaqdır.

Fəallıq göstərən, düzgün danışan, qanun və əxlaq normaları çərçivəsində əsaslandırılmış şəkildə bu fəaliyyət sahəsində ölkəmizin maraqlarını qoruyan hər kəsə təşəkkür edirəm.

Amma başqa misallar da var. Öz Vətəninə nə dərəcədə nifrət etməlisən ki, Azərbaycan Ordusunun düşmən təxribatına layiqincə cavab verdiyi bir vaxtda üçüncü ölkələrdə gizlənərək "darmadağın edilmiş" Azərbaycan mövqeləri, mülki əhali arasında çoxsaylı insan tələfatı haqqında yalanları efirə verəsən, həmvətənlərimizin qəlblərinə təlaş, qorxu və məyusluq yeridəsən? Yaxud əhəmiyyətsiz, həyata keçirilməz siyasi ambisiyalar naminə parçalanma, hərc-mərclik, qarışıqlıq yaratmaq üçün Azərbaycan gənclərinin vətənpərvərlik əhval-ruhiyyəsindən istifadə etməyə çalışasan?

Bu hərəkətlərə və belə insanlara haqq qazandırmaq olmaz. Onların öz torpağı naminə canından keçməyə hazır olan milyonlarla azərbaycanlı ilə ümumi heç nəyi yoxdur və ola da bilməz. Tanrı onlara hakimdir, çünki ictimai qınaqdan başqa Allah qarşısında hamı cavabdehdir.

Əziz dostlar!

Sosial şəbəkələrdə nümayiş etdirdiyiniz qarşılıqlı dəstəyi, səbri, həmrəyliyi, təmkini və özünənəzarəti görməmək mümkün deyil. Buna görə sizə minnətdaram! Biz hamımız sayıq olmalı, təxribata uymamalıyıq. Gəlin hər dəfə yeni paylaşım edərkən, foto yerləşdirərkən və ya şərh yazarkən unutmayaq ki, biz müharibə şəraitində yaşayırıq və qarşı tərəf informasiya məkanında yayımladığımız hər şeydən istifadə edə bilər. Unutmayaq ki, hər birimizin borcu Azərbaycanın mövqeyini müdafiə etməkdir. Nəinki döyüş meydanında, həm də kompüter qarşısında. Unutmayaq ki, bu gün biz bir amalımız olan millət, xalqıq. Bizə zəfər lazımdır. Hamımız üçün bir qələbə. Qalib gələn isə gücü birlik, ağıl və iradə ilə möhkəmlənən olur.

Mən doğma Azərbaycanımı və öz müdrik, mərd və mərhəmətli xalqımı hədsiz dərəcədə sevirəm! Bizim işimiz haqq işidir və Tanrı bizimlədir! Uca Tanrı Azərbaycanı qorusun!

Sevgilərlə,

Sizin MEHRİBAN".

## General Yücel Karauz: Son hadisələr zamanı Azərbaycanda xalq-ordu, xalq-Prezident birliyinin şahidi olduq



Ermənistanda hazırda korrupsiya və rüşvət baş alıb edir, səfalət hökm sürür, bütün bunlarla mübarizə belə aparılmır. Pandemiya səbəbindən bu ölkənin əhalisi ən çətin durumdadır. Ermənistan hakimiyyəti xalqın diqqətini bu böhrandan yayındırmaq üçün belə bir yeni münaqişə mənbəyi yaratmağa çalışır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında istefada olan general Yücel Karauz bildirib.

O vurğulayıb ki, Ermənistan hər dəfə əvvəlki müharibələrin məğlubiyyətinin əvəzini çıxmaq üçün yeni hücumlara əl atır. Lakin hər dəfə onların cəhdləri uğursuz olur, düşmən daha böyük itkilər verir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ordu quruculuğunun təməlini qoydu və qısa müddət ərzində böyük işlər görüldü. Bu strategiya Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. O deyib: "Ordu quruculuğu uzun zaman tələb edir. Prezident İlham Əliyevin birbaşa rəhbərliyi ilə Azərbaycan Ordusu texniki təchizat, təlim və tədris, şəxsi heyətin milli-mənəvi ruh yüksəkliyi baxımından qısa zamanda böyük inkişaf yolu keçib. Bütün bu nailiyyətlər həm 2016-cı ilin Aprel döyüşlərində, həm də son təxribat zamanı özünü təsdiq etdi. Ön cəbhədə döyüşən general, zabit, gizir və əsgərlər əsl qəhrəmanlıq göstərdilər. Bu hadisələrin ilk anından başlayaraq qardaş Türkiyə Azərbaycanın yanında oldu".

Yücel Karauz deyib ki, son hadisələr zamanı Azərbaycanda xalq-ordu, xalq-Prezident birliyinin şahidi olduq. Azərbaycanın peşəkar və mübariz ordusu, yenilməz komandirləri və müdrik Prezidenti vardır.

## Əlahiddə Ümumqoşun Orduda taktiki təlimlər

*Əlahiddə Ümumqoşun Orduda keçirilən tabor, divizion döyüş atışlı və atışsız taktiki təlimləri davam edir. Taktiki təlimlərdə haubitsalı artilleriya, aviasiya, hava hücumundan müdafiə və digər bölmələr arasında qarşılıqlı əlaqə sualları işlənilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, bölmələrin uzlaşmasının və səhra vərdişlərinin yüksəldilməsinin ən səmərəli ali forması döyüş atışlı taktiki təlimlər olduğu üçün tabor və divizionlarda keçirilən bu təlimlərə Əlahiddə Ümumqoşun Orduda xüsusi diqqət yetirilir.

Haubitsalı artilleriya divizionlarının döyüş atışlı taktiki təlimləri də döyüş vəziyyətinə tam yaxınlaşdırılmış şərtlərlə keçirilib.

Təlimlər zamanı aviasiya ilə qarşılıqlı əlaqə sualları işlənilib, hava hücumundan müdafiə bölmələri ilə birlikdə düşmənin hava hücum vasitələri və pilotsuz uçuş aparatlarına qarşı fəaliyyətlər icra edilib.

Şəxsi heyət taktiki və atəş tapşırıqlarının icrasında müsbət nəticələr göstərib.

## Ermənistana məxsus iki ədəd taktiki PUA məhv edilib

İyulun 21-i Ermənistan silahlı qüvvələrinin bölmələri taktiki pilotsuz uçuş aparatları (PUA) vasitəsilə gecə saat 00.30 radələrində cəbhənin Ağdam rayonu istiqamətində, səhər saat 08.45 radələrində isə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətindəki mövqelərimiz üzərində kəşfiyyat uçuşları keçirməyə cəhd göstərib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Hərbi Hava Qüvvələrimizin Hava Hücumundan Müdafiə bölmələri tərəfindən hər iki düşmən PUA-sı dərhal aşkarlanaraq dəqiq atəşlə məhv edilib.

# “Bu döyüşlər bizim növbəti şanlı qələbəmizdi”

*Ermənistan silahlı birləşmələri Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu ərazisindən dövlət sərhədimizi hücumla pozdu. Azərbaycan hərbçiləri düşmənin qəfil hücumunun qarşısını aldı. Düşmənin dayaq məntəqələri dağıdıldı, neçə-neçə döyüş texnikası, canlı qüvvəsi məhv edildi. Əməkdaşlarımız döyüşdə yaralanmış hərbçilərimizlə görüşüb.*



**Baş leytenant Saleh Talıbov:**

Əsgərlərimiz şəhidlərimizin döyüş yolunu davam etdirir. Hər bir azərbaycanlının müqəddəs arzusu - Böyük Qələbə ordumuzun igid, mərd, qorxubilməz və ürəkləri Vətən sevgisilə döyünən oğullarının sayəsində reallaşacaq. Bu arzunu Aprel döyüşlərində, Günnüt zəfərində qələbə qazanmış əsgərlərimiz gerçəkləşdirəcək. Həmin döyüşlərdə düşməni ağır məğlubiyyətə uğradanlarımız göstərdi ki, münaqişə sülh yolu ilə həll olunmasa, tezliklə bu qələbələri tamamlayacaq döyüş olacaq. Xalqımıza növbəti qələbə sevincini yaşatmağın təşnəsiyik, Böyük Qələbənin ərəfəsindəyik...

İyulun 12-si günorta saatlarında Azərbaycan-Ermənistan sərhədində düşmən atəşkəs rejimini pozaraq hücuma keçdi. Həyacan siqnalı verildi. Yüksək döyüş və mənəvi-psixoloji hazırlıqlı bölmələrimiz düşmənə layiqli cavab verdi. Düşmənin döyüş texnikası və canlı qüvvəsi məhv edildi. Ordumuzun şəxsi heyəti əsl qəhrəmanlıq göstərdi.

Bu döyüşlər bizim növbəti şanlı qələbəmizdir. Bu döyüşlər də təsdiqlədi ki, ordumuzda aparılan ideoloji iş, mənəvi-psixoloji hazırlıq, şəxsi heyətin yüksək əhval-ruhiyyəsi və ruh yüksəkliyi ən yüksək səviyyədədir. Azərbaycan Ordusunun şəxsi heyəti istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir.

Döyüşdə yaralandım. Hospitalda olduğum bu günlərdə tərxis olan onlarla əsgərimdən, dostumdan, tanışımdan orduya könüllü getmək üçün zənglər almışam - dost kimi istəklərini mənimlə bölüşürlər. Tibbi qayğı ilə yanaşı, gənclərimizin bu sevgisi də sağalmağıma təsir edir. Azərbaycan əsgəri Vətənin keşiyini çəkir, həkimlər Vətənin keşiyini çəkənlərin keşiyini. Döyüşdə yaralananları həyata qaytaran tibbi personalı heç zaman unutmayacağıq. Həkimlərimizin, tibb bacılarının yaralılara anabacı şəfqəti bizlərin döyüş, qələbə ruhunun zərrəsinə çevrilir. Tez bir zamanda sağalıb döyüş yoldaşlarımın yanına qayıtmaq, xalqımıza Böyük Qələbə sevincini bəxş etmək istəyirəm.

**Kiçik çavuş Novruz Əliyev:**

- Sərhəd, səngər... Ürəyi Vətən eşqi ilə döyünənlərin səngəri sevgisinin sərhəddidir və düşmənə keçilməz qaladır. Vətəni qoruyanların mərdliyi, qorxmazlığı, vətənpərvərliyidir bu qalanı daha da toxunulmaz edən. Əsgərlərimiz mərdliklə xidmət edir, Vətəni qoruyur. Ön xətdə xidmətimdən həmişə qürurlanmışam...

İyulun 12-dən başlayaraq düşmən Azərbaycan-Ermənistan sərhədində artilleriya atəşi ilə atəşkəs rejimini pozdu. Ordumuzun adekvat tədbirləri nəticəsində düşmənə cavab zərbəsi endirildi və ermənilər böyük itkilər verərək geri çəkilməyə məcbur edildi. Yüksək döyüş və mənəvi-psixoloji hazırlıqlı əsgərlərimiz qətiyyətlə vuruşdular. Gedən döyüşlərdə ordumuz bir daha öz üstünlüyünü sübut etdi.

Şəhid olan oğul, Vətəninin, xalqının, millətinin müstəqilliyi naminə həlak olan əsgər əbədiyyən yaşayır. Xalqımız Vətənimizin müstəqilliyi uğrunda döyüşənlərlə, ordumuzun bütün mərd oğulları ilə qürur duyur. Qəhrəmanlıqla şəhid olanlar tarix yazır.

Döyüşdə yaralandım. İlk təcili tibbi yardımı aldıqdan sonra Silahlı Qüvvələrin Baş Klinik Hospitalına gətirildim. Tibbi personaldan çox razıyam.

Yaralılar həkim və tibb bacılarının qayğısı nəticəsində sağalaraq Vətəni tam gücləri ilə qorumaq üçün öz xidmət yerlərinə qayıdırlar. Onlara dərin təşəkkürümü bildirir, nəcib, xeyirxah işlərində uğurlar, özümə isə tez bir zamanda sağalaraq Vətənin keşiyində öz yerimi tutmağı arzulayıram.



**Əsgər Ceyhun Kalbalıyev:**

- Hər gənc kimi mən də əsgər olmaqdan, torpaqlarımızın müdafiəsində dayanmaqdan qürur duyuram. Əsgəri xidmət hər birimizin Vətən qarşısında övladlıq borcudur. Bütün silahdaşlarım kimi mən də bir amalla xidmət edirəm - işğalda olan doğma torpaqlarımızın azad edilməsi uğrunda döyüşə hər an hazır olmaq. Bunun üçün nümunəvi xidmət aparır, döyüş vərdişlərini mənimsəməyə daim səy göstərirəm. Gənc əsgər hazırlığımı bitirib səngərə yollanacağımı biləndə çox sevindim. Çünki səngərdə xidmət etmək şərəflidir və arzum olub. Lakin onu da bilirdim ki, burada xidmət ikiqat məsuliyyət tələb edir. Çünki qarşında hiyləgər və xain düşmən dayanır. Bölməyə gəldiyim ilk gündən komandirlərim də diqqətli olmağı, ayıq-sayıq xidmət etməyi tapşırdılar. Düşmənin hücumu ərəfəsində həmişəki kimi xidmətimizi davam etdirirdik. Düşmən qəfil təxribata əl atdı. İriçaplı silahlardan və minaatanlardan mövqelərimizi atəşə tutdu. Sayıqlığımız nəticəsində onlara layiqli cavab verdik. Artıq 4-cü gün idi ki, qızğın döyüş davam edirdi. Hər kəs silahına sarılıb mərdliklə döyüşürdü. İşğalçı düşmən artilleriyadan atəş açaraq həm bölmələrimizi hədəf götürürdü, həm də dinc əhalini. Ermənilər hücuma keçib mövqelərimizə soxulmaq istəyirdilər. Lakin onlara imkan vermədik ki, bir addım da irəli gəlsinlər. Artilleriya qüvvələrimizin də atəş dəstəyi ilə düşməni yerinə oturtduq. Çox təəssüflənirəm ki, mən yaralandım və döyüş meydanını tərk etməli oldum. Döyüşü davam etdirmək istəyirdim, lakin komandirlərim yaralandığımı görüb məni tibb məntəqəsinə, ordan da hospitala göndərdilər. Hal-hazırda səhhətim yaxşıdır. Bir neçə gün qabağ çiyin-çiyinə döyüşdüyüm yoldaşlarım döyüşdədi, mənsə hospitalda. Gecələri də yata bilmirəm, fikrim onların yanındadır. Tez bir vaxtda xidmətimə qayıdıb döyüşə davam etmək istəyirəm. Burada olduğum günlərdə tibb bacıları və həkimlər bizə yüksək qayğı göstərir, sağalmağımız üçün əllərindən gələni edirlər.



Bu döyüşdə mən xalqımızda olan Vətən sevgisinin, vətənpərvərliyin bir daha şahidi oldum. Başımıza düşmən mərmiləri yağırdı. Lakin heç kim qorxu bilmədən döyüşürdü. Yaralandıqda belə heç kim getmək istəmirdi. Bir neçə hərbi qulluqçu yaralı halda belə döyüşürdü, yaralandığını bildirmirdi. Həmin anları sözlərlə ifadə etmək mümkün deyil. İnsana daxilən elə bir güc, dözüm, cəsarət, irada gəlir ki, heç nə gözünə görünmür. Yaralandıqda belə ağrı-acı hiss etmirsən. Sadəcə bir düşüncən olur, sona kimi döyüşmək, düşməni məhv etmək, ana Vətəninə uzanan xain əlləri kəsmək. Vətən sevgisinin nə olduğunu həmin an daha yaxşı dərk edirsən. Ruhuna hakim olan vətənpərvərlik hisslərindən güc alırsan. "Vətən sağ olsun!" deyib silaha sarılırsan. Dövlətinin ərazi bütövlüyü, xalqının firavanlığı üçün döyüşürsən. Silahdaşlarının döyüş ruhu, əzmkarlığı səni daha da ruhlandırır. Müşahidə zamanı görürsən ki, hamı mətinliklə döyüşür. Biri yaralandıqda, digər biri həyatını riskə atır, onu xilas edib döyüş meydanından çıxardır. Silahdaşlarımın bu qəhrəmanlıqlarını izlədikcə daha da ruhlanırdım. Öz-özümə düşünürdüm ki, bax budur birliyimiz, vətənpərvərliyimiz. Xalqımla, ordumla, silahdaşlarımla bir daha fəxr etdim. Daha güclü iradə və mətinliklə döyüşməyə davam etdim. Belə döyüş səhnələri bizim qəhrəman xalq olduğumuzu bir daha sübut edir. İnanıram ki, şəhidlərimizin qisasını alacağıq. Bu döyüşlərdə şəhid olan general-mayor Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin və digər qəhrəmanlarımızın ailə üzvlərinə səslənmək istəyirəm. Sizin övladlarınız ölməyib. Bizim hamımız sizə övladıq. Şəhid qardaşlarımızın qanını yerdə qoymayacağıq. Qisas almaq üçün hər birimiz Ali Baş Komandanın döyüş əmrini gözləyirik. Əmr verilsin, düşməni məhv edək, işğalda olan bütün torpaqlarımızı azad edib, Qarabağa üçrəngli bayrağımızı sancaq!

**"Azərbaycan Ordusu"**

## Azərbaycan Respublikasının Müdafiə naziri ilə rusiyalı həmkarı arasında telefon danışığı olub

İyulun 18-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təşəbbüsü ilə Rusiya Federasiyasının Müdafiə naziri ordu generalı Sergey Şoyqu ilə telefon danışığı olub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, telefon danışığı zamanı tərəflər iki ölkə arasında dostluğa, qarşılıqlı etimada və mehriban qonşuluq münasibətlərinə əsaslanan əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini qeyd ediblər. Nazirlər ölkələrimizin hərbi sahədə əməkdaşlığının yüksək səviyyədə olduğunu qeyd edərək, hərbi və hərbi-texniki əlaqələrin inkişaf perspektivlərini müzakirə ediblər.

Nazirlər, həmçinin regional təhlükəsizlik məsələləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər barədə də geniş fikir mübadiləsi aparıblar.

Telefon danışığı əsnasında Rusiya Federasiyasının Müdafiə naziri ordu generalı Sergey Şoyqu general-polkovnik Zakir Həsənova Rusiya Silahlı Qüvvələrinin döyüş hazırlığının qəfil yoxlamaları tədbirləri haqqında məlumat vermişdir. Sergey Şoyqu bu tədbirlərin əvvəlcədən planlaşdırıldığını və heç bir halda Ermənistan-Azərbaycan sərhədində baş vermiş hadisələrlə bağlı olmadığını vurğulamışdır.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**21 iyul 2020-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 62 dəfə pozub.

Ermənistan Respublikası Çəmbərək rayonunun Cil kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# “Əsgərlərimizin döyüş əzmi, qələbə ruhu yüksəkdir”

*İsti bir yay günündə istiqamətimiz özünün gözəl, füsunkar, əsrarəngiz təbiəti ilə göz oxşayan, Azərbaycanın sevilib-seçilən, ərənlər yurdu olan rayonlarından birinədir. Dağ yamaclarının zirvəsinə qalxdıqca sanki göz oxşayan mənzərələr səni valeh edir. Yaşayış yerləri də möcüzəli və maraqlı gəlir insana. Evdən həyətə, həyətdən üzü aşağı bulağa, bulaqdan çaya, çaydan meşənin içərisinə, meşədən isə dağa qalxırsan. Ürək, qəlb açılır, beyin təzələnir, insanın əhval-ruhiyyəsi yüksəlir. Elə bilirsən ki, dünyanın "Cənnəti"nə düşmüsən, səndən xoşbəxti yoxdur.*

## Ön xətdən reportaj



Bu gün həm də ona görə xoşbəxtik ki, gəldiyimiz hərbi hissənin zabitinin müşayiəti ilə əsgər oğullarımızın görüşünə tələsirik. Yolboyu təbiətin sehrindən ayrıla bilmirik.

Mayor Rəşad Əliyev sükutu pozaraq bildirir ki, bu gün Ali Baş Komandanımız tərəfindən ordu quruculuğuna göstərilən yüksək diqqət və qayğının nəticəsində ordumuzun döyüş hazırlığı yüksəlib, o cümlədən təmsil olunduğu hərbi hissə də yeni silah-sursat və ən müasir döyüş texnikası ilə təmin olunub. "Şəxsi heyətimiz hər an doğma torpaqlarımızı azad etməyə hazırdır və məhz bu məqsədlə güclü ordu yaradılıb. Bu gün əsgərlərimizin döyüş əzmi, qələbə ruhu yüksəkdir. Uzun illərdir Azərbaycan xalqı işğaldan əziyyət çəkir. Ancaq Azərbaycan öz torpaqlarının bir hissəsini müvəqqəti olaraq



itirib. Bu səbəbdən ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət, hökumət və hər bir vətəndaş üçün prioritet vəzifədir".

Sürücü müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Eltac Qasımov isə qeyd edir ki, bu gün sərhəddə - ön xətdə səngərdə xalqın müdafiəsi üçün dayanan əsgər və zabitlərimizin məqsədi, vəzifəsi birdir - Azərbaycan xalqının səbirsizliklə gözlədiyi qələbəni təmin etmək. Hər bir əsgərimiz yaxşı başa düşür ki, şəhidlərimizin qanı yerdə qalmamalı, ana-bacılarımızın qisası alınmalı, ən əsası üçrəngli bayrağımız bütün Azərbaycan ərazisində dalğalanmalıdır.

Söhbətin şirin yerində səngərə çatırıq. Göy üzünün tutulması bizə yağacaq güclü yağışdan xəbər verir. Asimanda hökmranlıq edən günəşdən əsər-əlamət yoxdur. Adama elə gəlir ki, buludun qaranlığına qərq olan dağlar, təpələr yağışa həsrətdi, Böyük Qələbədən sonrakı yağışa... Sevinc göz yaşlarına qovuşaraq yolu, irizi, bəndi, bərəni yuyub aparan, bizi torpaqlarımıza uğurlayan bir yağışın təşnəsidi bu torpaq. Bu torpaqlar əsas sakinlərinə qovuşmaq həsrətindədi. Bu həsrətə son qoyacaq bir qüvvə var: Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan əsgəri. Odur ki, uca dağlarda məskən salan Azərbaycan əsgəri ilə görüşə gəlmişik.

Tanrının yaratdığı əvəzsiz təbiət mənzərələrini - xınalı daşları, sərt qayaları, yol kənarından boylanan, ətri ilə insanı bihuş edən kəklikotu kollarını, zirvələrdə ara-sıra gözə dəyən qar talalarını, yamacı yaşıla bürünən uca dağları seyr edir və dağ vüqarlı əsgərlərimizlə həmsöhbət oluruq.

İlkin olaraq gizir Elçin Qəhrəmanov bildirir ki, Vətən keşiyində dayanmaq onun üçün hisslərin ən alisinə çevrilib: "Fəqət bu ali hissi anlamından da çox yaşamaq lazımdır. Bu hissi yaşamadan səngərin mahiyyətini dərk etmək olmaz. İndiki vəziyyətdə belə hal Vətənə yetərli deyil, sözün həqiqi mənasında, qəbuledilməzdir. Ona görə də bütün zabitlərimiz əsgərlərimizə bir ali məqsədə nail olmaq - torpaq və millət naminə xalqımızın Qələbəsini təmin etmək üçün birlik və həmrəylik aşılayır. Onlar yaxşı bilir ki, tarixi qələbə bizdən asılıdır".

Zabit Rəşad Əliyev Azərbaycan Ordusunun şəxsi heyətinin nail olduğu inkişaf nəticəsində möhkəm birlik əldə etdiyini əminliklə qeyd edir. Onu da bildirir ki, Aprel döyüşləri bu birliyi daha da möhkəmləndirdi: "Əmin oldum ki, tariximizə dayanan, keçmişimizə bağlı olan bir xalq kimi formalaşmışıq. İllər ötsə də, zaman keçsə də, heç kim bizim Vətən sevgimizi nə azalda, nə də bundan məhrum edə bilər. Qanımız, ruhumuz vətənpərvərliklə yoğrulub bizim. Dörd gün ərzində ürəyimizdəki ümid qığılcımları, qisas hissi, birlik duyğusu sanki silkələndi. Bir olduq. Birliyimizin fərqinə vardıq. Əsgərlərimiz böyük ruh yüksəkliyi ilə hər an önə atılmağa hazır idilər. Bir sözlə, inamımızın, ümidimizin, mübarizliyimizin ölmədiyinin şahidi olduq".

Bu söhbətdən sonra əsgər Elnur Əzizovla söhbət etməyə nail oluruq. “Xidmət etdiyim müddətdə hərbin sirlərinə yiyələnmişəm. Əsgər kimi üzərimə düşən bütün tapşırıqların öhdəsindən layiqincə gəlməyə çalışmışam. Qarşıda gördüyünüz dağın o tərəfində Azərbaycan torpaqları yerləşir. Torpaqlarımızın geri qaytarılması arzusundayam. Bütün arzularım həyata keçib. İnanıram ki, bu arzum da tezliklə həyata keçəcək".

Əsgər Rəşad Alməmmədov düşmənlə üzbəüz mövqedə dayandığından qürur hissi keçirdiyini bildirir: "Mübariz kimi, Çingiz kimi qəhrəman oğullarımızın yolunun davamçısı və torpaqlarımızı işğaldan azad edənlərin sırasında olmaq ən böyük arzumdur. Yaxşı bilirəm ki, müharibədə döyüş də var, şəhidlik də var. Bilirəm ki, döyüşdə hər an şəhid də ola bilərəm. Ancaq Vətənə görə döyüşürəm, torpaqlarımız üçün döyüşürəm, ölümdən qorxmadan döyüşürəm. Polad, Mübariz, Çingiz kimi oğullarımız şəhidliyi özləri seçmişdi. Vətən üçün seçmişdi, xidmətdə olan əsgərlərə, çağırışçılara vəsiyyət kimi seçmişdi. Onların şəhidliyi biz əsgərlərə nümunədir".



Hərbi xidmət həyatda mübarizə aparmaq və ədalətli olmaq hissini mənə aşıladı, - deyə əsgər Murad Əliyev söhbətə qoşulur. - Burada valideynlərimin aşıladığı böyüyə və kiçiyə hörmətlə yanaşmaq fikirləri kollektiv arasında hörmət qazanmağıma yardımçı oldu. Qarşılığında zabitlərdən, gizirlərdən, tabe olduğum digər hərbi qulluqçulardan və əsgər yoldaşlarımdan qayğı və diqqət gördüm. Bu yolun yolçusu olmaq qərarına gəlmişəm. Tərxis olduqdan sonra Vətənimə xidmətimi davam etdirmək istəyirəm.

Əsgər Muxtar Əlipaşayev atasına, anasına, dostlarına... salam göndərməklə söhbətə başlayır. "Sevgi insanın bu dünyada yaşaması üçün əsas stimuldur. Ona görə də mən valideynlərimi, bir sözlə, xalqımı sevirəm. Ancaq Vətənimə olan sevgimi heç bir hisslə müqayisə edə bilmirəm. Mən bir azərbaycanlı, xalqının, millətinin xoş güzəranını istəyən bir Vətən övladı, bu yolda canından belə keçməyə hazır olan bir Vətən əsgəri kimi demək istəyirəm ki, mənim üçün ilk öncə Vətən sevgisi gəlir.

Əsgər Kənan Həmidov əsgər yoldaşının sözünü təsdiqləyərək deyir ki, Vətən, hər nəyin bahasına olursa-olsun, müdafiə etmək məcburiyyətində olduğumuz, ana dediyimiz, şəhidlərimizin uğrunda can verib, qanlarıyla suladığı, millətimizin üzərində yaşadığı torpaqdır. Vətəni müdafiə etmək, onun uğrunda qan tökmək, canımızı fəda etmək vətəndaşlıq və əsgəri borcumuzdur.

"Ata-babalarımızdan əmanət olaraq aldığımız, üzərində xoşbəxt və firavan yaşadığımız, yer üzünün cənnəti olan bu gözəl yurdumuzu, onun üzərində atalarımızın qurduqları sivilizasiya və mədəniyyət xəzinələrini, dilimizi, mənəviyyatımızı qoruya bilmək, yaşatmaq və gələcək nəsillərə ötürmək üçün onu müdafiə etməyə hər an hazır olmalıyıq", - deyə əsgər Elsevər Cəfərli bildirir.

Səngərdə düşmənlə üz-üzə dayanmaq şərəfinə nail olan, nümunəvi xidməti ilə seçilən digər əsgərlər də bildirirlər ki, erməniləri bizim qədim yurdumuzdan qovub çıxartmaq üçün əlimizdə silah Vətən torpaqlarının müdafiəsində ayıqsayıq dayanmışıq və Ali Baş Komandanımızın əmrini səbirsizliklə gözləyirik.

Söylənilən bu fikirlərin arxasında Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş əzmi, Qələbə ruhu dayanır. Qələbə ruhlu igid oğullarımız demək istəyir ki, gec və ya tez mütləq işğal olunan torpaqlarımızı azad edəcəyik, şəhidlərimizin qanını yerdə qoymayacağıq və düşmənin layiqli cəzasını verəcəyik.

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

**(Ardı 5-ci səhifədə)**

# "Əsgərlərimizin döyüş əzmi, qələbə ruhu yüksəkdir"



(Əvvəli 4-cü səhifədə)

*Mən də, ictimaiyyət də əmindir ki, biz Qarabağa qayıdacağıq!.. Ön xətdəyik. Dayandığımız mövqedən döyüşlər gedən əraziyə qədər xeyli məsafə var. Ancaq ruhumuz o döyüşlərin iştirakçılarının sırasındadı. Biz də orada olmaq istərdik...*

İyulun 12-də günorta saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuz rayonu istiqamətində Azərbaycan-Ermənistan dövlət sərhədini pozdu, artilleriya qurğularından istifadə etməklə mövqelərimizi ələ keçirmək üçün hücuma keçdi. Şəxsi heyətin ayıq-sayıqlığı, görülən adekvat tədbirlər nəticəsində düşmənin hücumunun qarşısı alındı. Düşmən itki verərək geri çəkildi.

Düşmən geri çəkilsə də, döyüşlər səhəri gün də davam etdi.

Artilleriya və minaatan qurğularının tətbiqi ilə gedən döyüşlərdə bölmələrimizin dəqiq atəşi ilə düşmənin dayaq məntəqələri, artilleriya qurğuları, hərbi hissəsinin ərazisində avtomobil texnikaları və yüzlərlə canlı qüvvəsi məhv edildi.

Zabit Ramid Hacıyevlə söhbət edirik. Bu döyüşlərdən danışırıq. Ruhən döyüşənlərin yanındayıq; hərbçi kimi əmrləri yerinə yetiririk, zabitlər də, əsgərlər də, biz də...

Təcrübəli zabit bölmələrin döyüşə hazırlığını yüksək qiymətləndirir, "Azərbaycan əsgəri Qarabağı azad etmək əzmindədir", - deyir, qəlbimiz dağa dönür. Belə qürurlu anları 2016-cı ilin aprelində də yaşamışdıq.

- Qarabağda dünyaya göz açmışam. Vətən sevgisi, Qarabağ həsrəti mənim də düşüncələrimdən üzülməyib. Qarabağda dünyaya göz açanlardan biri kimi torpaqlarımızın işğaldan azad edilməsində mən də iştirak etmək istəyirəm. Arzum torpaqlarımıza qələbə bayrağı sancanların sırasında olmaqdır. Xidmətimin başlanğıcından bu istəklə yaşayıram. İllər keçir, xidmət etdiyim bütün yerlərdə görürəm ki, mənim qəlbimi alovlandıran bu istək bütün hərbi qulluqçuların istəyidir. Mən də bilirəm ki, insan amili çox vacibdir. Bu, öz yerində. Bu mənada hərbi qulluqçunun texnikanın istismarını, silahın istifadəsini mükəmməl bilməsi əhəmiyyətlidir. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun "MSPO-2017" sərgisində dediyi "Silahlı Qüvvələrimizin müasir ordular səviyyəsində silahlanması ilə bərabər, hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin də durmadan artırılması bu gün Azərbaycanda ordu rəhbərliyinin diqqət mərkəzindədir. Bu baxımdan hərbi bölmələrdə şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılmasına önəm verilir və beynəlxalq səviyyədə təcrübə mübadiləsi aparılır. Azərbaycan hərbçiləri ardıcıl olaraq NATO və digər ölkələrin hərbi əməkdaşlıq planlarına əsasən keçirilən tədbirlərdə fəal iştirak edirlər. Ən müasir silahı da idarə edən insan beynidir, amili də təsdiqləyir ki, hərbi qulluqçular müasir silah və texnikaların istifadə qaydalarını mükəmməl mənimsəməyə borcludurlar" - fikri bunu təsdiq edir.



2016-cı ilin Aprel zəfəri, 2018-ci ilin Günnüt əməliyyatındakı uğurun qürurunu ictimaiyyət də yaşadı, hərbçilər də. Tovuz istiqamətində gedən döyüşlərdə düşmənə sarsıdıcı zərbələrin vurulması, nəticə etibarilə qələbənin qazanılması Azərbaycan Ordusunun gücünün, qüdrətinin təsdiqidir.

Zabit Ramid Hacıyevlə söhbətin mahiyyətini, verdiyi məlumatların qürurunu düşüncələrimizə hopduraraq səngərləri gəzirik. Leytenant Ədalət Novruzov əsgərlərin döyüş və mənəvi-psixoloji hazırlığının yüksək olduğunu bildirir. Ramid Hacıyev özünə borc bilirmiş kimi söhbətə qoşularaq gənc zabit Ədalət Novruzov haqqında fikirlərini bildirir.

- Ədalət İmişli rayonunun Aranlı kəndində anadan olub. Atası Yaşar kişi oğlunun ali təhsil alması, ya həkim, ya da mühəndis olması üçün çox səy göstərib. Məktəb illərində Ədalət məsuliyyətli, çalışqan şagird olub. Oxuduğu İmişli rayon Aranlı kənd Natiq Əsədov adına 2 saylı tam orta məktəb şəhidin adını daşıyırdı. Ədalət hazırda təqaüddə olan ibtidai sinif müəllimi Fövqalə Qədirovadan Natiq Əsədov haqqında eşidib. Onun döyüşlərdə şücaəti, vətənpərvərliyi məktəbli Ədalətin də ömrünə yazılıb. Elə o yaşlardan hərbçi olmağı qərara alıb. İndi zabitdir, ön xətdə xidmət edir. Gənc, bacarıqlı komandirlərdəndir...

"Zabit Ramid Hacıyev leytenant Ədalət Novruzovu belə xarakterizə edir. Bəs leytenant əsgərləri haqqında nə deyə bilər? sualıma cavab olaraq gənc zabit qeyd edir ki, əsgərlərimi bir-birindən fərd olaraq ayırmıram. "Mən onlara inanıram, güvənirəm. Onların hər biri döyüşdə bir-birinə, eyni zamanda, mənə də arxa-dayaqdır. Gedən döyüşlər haqqında mənim də məlumatım var, onların da. O döyüşlərdə biz də iştirak etmək istərdik. Buna ehtiyac olmadı.

Xidmətimizi ayıq-sayıq aparır, döyüş əmrini gözləyirik. Əsgərlərimizin Vətən sevgisini, Qarabağ həsrətini gözlərindən oxuya bilərsiniz.

Döyüş mövqeyində Vətənin keşiyini çəkən əsgər Vahid Şahbazovla da söhbətləşirik:

- Bizdən çox da uzaqda olmayan mövqelərdəki döyüşlərdən, ölkəmizin paytaxtında və digər rayonlarımızda keçirilən həmrəylik yürüşlərindən mən də xəbərdaram. Azərbaycan əsgəri olaraq sinəsində üçrəngli Azərbaycan bayrağıyla son mənzilə yola salınan şəhidlərimizin ruhu qarşısında baş əyir və demək istəyirəm ki, hər birinin qisası alınacaq. Torpaqlarımızın işğaldan azad edilməsi onların ruhuna gözaydınlığı olacaq. Döyüşən, düşmənin hücumunun qarşısını alan yoldaşlarımıza demək istəyirəm ki, Ali Baş Komandanın əmri ilə torpaqlarımızın işğaldan azad edilməsi zamanı



birlikdə döyüşəcəyik. Siz düşmən üzərində qələbə qazandınız, Azərbaycan Ordusunun qüdrətini təsdiqlədiniz. Döyüş əmri verilənə kimi siz də, biz də döyüş növbətçiliyini böyük məsuliyyətlə aparacağıq.

Səngərdə döyüş ab-havası, qələbə ruhu var.

...Uzun səngərlər, bu səngərlər boyu qurulan mühəndis-istehkam qurğularının möhtəşəmliyi qayalara, daşlara mətərislənib.

Səngərdə, əsgərlərin əhatəsində qardaş Türkiyəni, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın jurnalistlərlə görüşündə dediklərini xatırlayıram. "Ermənistan işğalçıdır. Ermənistanın işğalı, bilirsiniz, illərdir davam edir. Dağlıq Qarabağ işğal altındadır. Hazırda Ermənistan davamlı şəkildə Azərbaycanın yaşayış məntəqələrinə hücum edir. Bu hücumlar nəticəsində Azərbaycan da hazırda öz üzərinə düşən işi görərək torpaqlarının müdafiəsi, xalqın müdafiəsi yönündə addımlar atıb. Bu məsələdə Azərbaycanın yanındayıq. Qardaş Azərbaycana dəstəyimizi verəcəyik. Mən cənab İlham Əliyevlə danışıqlara davam edirəm. Sonuncu dəfə dünən oradan bir heyət Türkiyəyə gəlib. Bizim bir sıra rəsmilərimizlə görüş keçiriblər. Mən də onlarla telefonla danışdım. Azərbaycanlıların Qafqaz mübarizəsində olduğu kimi bu gün də yanındayıq və yanında olacağıq".

Bu düşüncələrin cazibəsindəykən döyüş növbətçiliyini təhvil verən əsgər Nofəl Şahbazovla qarşılaşıram. Qürurludu, sevinclidi, o da Tovuzda düşmənə ağır zərbələr vurulduğundan xəbərdardı. İyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Ali Baş Komandanın "Azərbaycan xalqını bu təxribata çəkən Ermənistan başından zərbə aldı. Bizim şanlı ordumuz, bizim əsgərlərimiz, zabitlərimiz, hərbi komandirlərimiz bu günlər ərzində gecə-gündüz yatmadan iş başındadırlar", - fikirləri onun da köksünü qabardıb.

- Azərbaycan əsgəri olaraq Ali Baş Komandandan, Müdafiə Nazirliyinin rəhbər heyətindən daima diqqət və qayğı görürük. Sosial məişət şəraitimiz, silah və texnikamız döyüşlərdə qələbə qazanmağımıza zəmin yaradır. Əsgər Rəşad Əliyev əsgər yoldaşının fikirlərini tamamlayır:

- Bu gün Azərbaycan əsgəri tam heyətlə yerindədir. Biz torpaqlarımızı işğaldan azad edəcəyik. Qarabağı qaytarmaq ifadəsi qəlbimi gizildədir, biz Qarabağa qayıdacağıq.

Əsgərlərimizin, zabitlərimizin Vətən sevgisiylə, döyüş əzmiylə, qələbə ruhuyla hiss edirik ki, Böyük Qələbə uzaqda deyil...

**Kapitan
Ceyhun CƏFƏRLİ,
baş leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Hikmət Hacıyev: Ermənistan son hərbi təxribatı ilə qarşıya qoyduğu heç bir məqsədə nail ola bilmədi

*İyulun 21-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva və Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlının iştirakı ilə mətbuat konfransı keçirilib.*



Azərbaycan Silahlı Qüvvələri tərəfindən mülki obyektlərin, o cümlədən kritik infrastrukturun hədəfə alınması Azərbaycanın heç zaman siyasəti olmayıb, olmayacaq da. Bu, Ermənistandır ki, belə məsələləri siyasi məqsədlər üçün, dezinformasiya məqsədilə istifadə edir.

Bu fikirləri iyulun 21-də mətbuat konfransında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Metsamor AES-lə bağlı Ermənistanda səslənən fikirlərə münasibət bildirərkən söyləyib.

Hikmət Hacıyev deyib ki, Ermənistanın əvvəlki prezidenti ölkəsinin arsenalında olan "İsgəndər" və "Skad" raketləri ilə Azərbaycanın Bakı və onun ətrafında yerləşən neft-qaz infrastrukturlarını birbaşa vurmaqla hədələyib. Bundan əlavə, Ermənistanın siyasi-hərbi rəhbərliyi onların arsenalında olan "İsgəndər" və digər raket sistemləri vasitəsilə Azərbaycanın Mingəçevir Su Anbarını vurmaqla hədələyib, həmçinin Azərbaycanın şəhərlərini darmadağın edəcəkləri ilə bağlı təhdid xarakteri daşıyan açıqlamalarla çıxış edib. Bundan başqa, hadisələrin gedişi zamanı Ermənistan tərəfindən Azərbaycan Respublikasının kritik əhəmiyyət daşıyan infrastrukturlarının, həmçinin neft-qaz boru kəmərlərinin hədəfə alınacağı xarakteri daşıyan açıqlamalar verilib. Bütün bunlar bilavasitə Ermənistanın siyasi-hərbi rəhbərliyinin açıq niyyətini göstərməkdədir.

"Hadisələrin gedişi onu göstərir ki, yalnız atəşkəs kifayət deyil. Ermənistan atəşkəsin arxasında gizlənərək Azərbaycana qarşı təcavüzkar siyasətini davam etdirir. Son hadisələr də onu göstərdi ki, işğal və təcavüzə son qoymaq lazımdır. Münaqişənin fundamental həllini tələb edən əsas şərtlərdən və amillərdən biri Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzünə son qoyulmasıdır. Təcavüz aktına soy qoymaqla bərabər, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinin yerinə yetirilməsi təmin olunmalıdır. Ümumiyyətlə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin həyata keçirilməsi mexanizmlərinə yenidən baxılmalıdır", - deyə Prezidentin köməkçisi qeyd edib.

Prezidentin köməkçisi onu da qeyd edib ki, Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın törətdiyi təxribata Təhlükəsizlik Şurasının və Nazirlər Kabinetinin iclaslarında Prezident İlham Əliyev tərəfindən tam qiymət verilib.

Hikmət Hacıyev bildirib ki, hadisələrdən əvvəl Ermənistanda yeni irticaçı doktrina qəbul edilib. Bu, Ermənistanın təxribat törədəcəyinə dəlalət edirdi. Ermənistanda yeni milli təhlükəsizlik strategiyası qəbul olunub. İyulun 12-də isə Tovuz istiqamətində qəfil artilleriya zərbəsi endirilib. Ermənistan UAZ avtomobilinin postlarına yaxınlaşdığını iddia edir. Bu, əsassızdır. Bu, Ermənistanın əvvəlcədən planlaşdırdığı hərbi təcavüzdür.

Prezidentin köməkçisi qeyd edib ki, Ermənistanın məqsədi, ilk növbədə, diqqəti Ermənistan-Azərbaycan münaqişəsindən yayındırmaq idi. "Məqsəd Ermənistanın üzv olduğu hərbi-siyasi təşkilatları, üçüncü tərəfləri münaqişəyə cəlb etmək, Azərbaycanın son dövrlər beynəlxalq səviyyədə apardığı uğurlu işlərə kölgə salmaq idi. Eyni zamanda, Şərq-Qərb Nəqliyyat Dəhlizinə, neft-qaz boru kəmərlərinə zərər gətirmək, regionu yeni ekoloji fəlakətlərlə üz-üzə qoymaq, yeni ərazilər işğal etmək, sərhəd boyunca yeni üstünlüklər əldə etmək, Ermənistanda mövcud olan daxili problemlərdən diqqəti yayındırmaq, həmçinin Aprel və Günnüt əməliyyatlarında Ermənistana vurulmuş zərbənin qisasını almaq da qarşıya qoyulan məqsəd idi. Lakin Ermənistan qarşıya qoyduğu heç bir məqsədə nail ola bilmədi. Azərbaycan Ordusu düşmənin hücum və təcavüz aktının qarşısını aldı, Ermənistan silahlı qüvvələrinə layiqli zərbə endirildi, sərhədlərimizin toxunulmazlığı, mülki əhalinin qorunması təmin olundu. Bu təcavüz aktına görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Ermənistan sivil dünya üçün təhlükə olmaqda davam edir".

Prezidentin köməkçisi qeyd edib ki, bütün bunlar Ermənistanın hərbi-siyasi rəhbərliyinin məkrli məqsədini göstərir. "Ermənistan tərəfi bu cür məsələlərlə öz cinayətlərini ört-basdır etməyə və beynəlxalq ictimaiyyətin diqqətini yayındırmağa cəhd edir".

Hikmət Hacıyev onu da vurğulayıb ki, Ermənistan tərəfi saxta şirkətlər yaradaraq qara bazarda qanunsuz silah təchizatı ilə məşğul olur. O, bu silahların terrorçuların əlinə keçməsi barədə məlumatların da olduğunu diqqətə çatdırıb.

"Azərbaycan tərəfi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı imitasiya xarakteri daşıyan danışıqlarda iştirak etmək fikrində deyil", - deyə Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri sözünə davam edib.

Prezidentin köməkçisi deyib ki, danışıqlar Minsk qrupunun mandatına uyğun çərçivədə aparılmalıdır. "Minsk qrupunun mandatı beynəlxalq prinsipləri, Helsinki Yekun Aktını, BMT-nin qətnamələrini əsas tutaraq danışıqları aparmaqdır".

"Azərbaycan tərəfi gözləyir ki, Minsk qrupunun həmsədrləri öz səylərini artırsınlar və danışıqlar daha intensiv aparılsın. Minsk qrupu prosesində 11 dövlət iştirak edir və bu dövlətlərin hər birinin iştirakı ilə geniş iclasın keçirilməsinə ehtiyac var", - deyə Hikmət Hacıyev qeyd edib.

Prezidentin köməkçisi onu da deyib ki, həmişə olduğu kimi, yenə də Azərbaycanın yaşayış obyektləri hədəf alındı. "Azərbaycan Ordusu Ermənistanın atəş məntəqələrini susdurdu. Təəssüf ki, 76 yaşlı bir mülki şəxs həlak oldu. Ermənilərin mülki əhaliyə vurmaq istədikləri zərbənin qarşısı Azərbaycan Ordusunun uğurlu tədbirləri nəticəsində alındı. Mülki əhaliyə, dövlət mülkiyyətinə dəymiş zərərlərin Prezident İlham Əliyevin Sərəncamına əsasən qiymətləndirilməsi aparılır".

Hikmət Hacıyev vurğulayıb ki, Ermənistanın bu hücumları beynəlxalq sənədlərə və razılaşmalara ziddir. "Ermənistan törətdiyi bu əməllərə görə məsuliyyət daşımaqla bərabər, bu ölkənin hərbi-siyasi rəhbərliyi də beynəlxalq hüquqa görə cinayət məsuliyyəti daşıyır".

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva mətbuat konfransında qeyd edib ki, iyulun 12-də Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətindəki hadisələr Ermənistan tərəfindən törədilmiş hərbi təxribat, terror aktı, gücdən istifadə etmək cəhdidir.

Leyla Abdullayeva bildirib ki, Ermənistan tərəfindən başladılan bu hərbi təxribatla bağlı beynəlxalq ictimaiyyət də narahatlıq keçirdi. "Türk Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, GUAM və digər beynəlxalq təşkilatlar Ermənistanın bu təxribatını qəti şəkildə pisləyən bəyanatlarla çıxış etdilər. Onlar Ermənistanın Azərbaycanın mülki əhalisini atəşə tutmasını qəti şəkildə pislədilər".

XİN rəsmisi vurğulayıb ki, beynəlxalq təşkilatlar Azərbaycanı birmənalı şəkildə dəstəklədilər. Ermənistanın yeni təxribat əməlləri, yeni ərazilər əldə etmək cəhdi beynəlxalq ictimaiyyət tərəfindən qətiyyətlə pislənildi.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı mətbuat konfransında bildirib ki, düşmən tərəfi döyüşlər zamanı hansısa tankımızın vurulması, "Qrad" yaylım atəş sistemindən istifadə olunması, qan çatışmazlığı kimi şayiələr yayırdılar. Müdafiə Nazirliyinin rəsmisi düşmənin bu cür dezinformasiyalarına inanmamağı tövsiyə edib. "Müdafiə Nazirliyinin məlumatlarının ictimaiyyətə çatdırılmasında mühüm rolu olan media nümayəndələrinə təşəkkür edirik. 2016-cı ilin aprelindəki əməliyyatlarda olduğu kimi, Müdafiə Nazirliyinin elektron poçt ünvanına on minlərlə müraciət daxil olub. Bu günədək Müdafiə Nazirliyinə 17 minə yaxın müraciət daxil olub. Eyni zamanda, vətəndaşlarımızın diqqətinə çatdırmaq istəyirəm ki, müraciətlər Müdafiə Nazirliyinə deyil, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə ünvanlanmalıdır".

Polkovnik Vaqif Dərgahlı Ermənistan silahlı qüvvələri bölmələrinin iyulun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində bölmələrimizin mövqelərini atəşə tutmasından da söz açıb.

Polkovnik V.Dərgahlı bildirib ki, mövqelərlə yanaşı, sərhəd bölgəsində yerləşən kəndlər də atəşə məruz qaldı. "Düşmən bölmələri əvvəlcə yüngül atıcı silahlardan atəş açırdılarsa, sonradan iriçaplı silahlardan 60, 82 və 120 millimetrlik minaatanlardan istifadə etməyə başladılar. Növbəti günlərdə bu silahların çapı və ağırlığı dəyişərək artilleriyadan istifadə edilməyə başlandı. Düşmən Tovuz istiqamətində mövqelərimizi ələ keçirməyə cəhd göstərdi."

Polkovnik V.Dərgahlı deyib ki, komandanlıq düşmənə layiqli cavab verilməsi ilə bağlı dərhal əmr verdi. "Düşmənin aktiv fəaliyyətinin qarşısının alınması ilə bağlı tapşırıq veriləndən sonra bölmələrimiz fəaliyyətə başladılar. Düşmənin ön xətdə yerləşən mövqeləri, dayaq məntəqələri, ehtiyatları, 100-dən artıq canlı qüvvəsi məhv edilib. Ermənistan mətbuatında yer alan məlumatlar, sosial şəbəkələrin monitorinqi düşmənin itkisinin yüzlərlə olduğunu göstərir. Lakin Ermənistan tərəfi itkiləri gizlətməyə çalışır. Yəqin ki, bir müddət sonra Ermənistan mütəmadi olaraq itkilərini müxtəlif adlar altında ortaya çıxaracaq.

Düşmənin itkiləri arasında Suriya və Yaxın Şərq ölkələrindən Ermənistana köç edən erməni əsilli şəxslərin olması da ehtimal olunur. Ona görə də Ermənistan hərbi rəhbərliyi bu itkiləri gizlətməyə çalışır. Bu təxribat nəticəsində ərazi itkisi olmayıb. Ərazi itkisi ilə bağlı səsləndirilən iddiaları tam rədd edirik".

Ermənistan silahlı qüvvələrinin bölmələrinin işğal olunmuş ərazilərlə yanaşı, Naxçıvan istiqamətində də fəallığının artmasının müşahidə edildiyini vurğulayan polkovnik V.Dərgahlı diqqətə çatdırıb: "İyulun 14-də Naxçıvan istiqamətində Ermənistan silahlı qüvvələrinin bir avtomobili məhv edilib. Bu döyüşlərdə bölmələrimizin qarşısında düşmən mövqelərini ələ keçirmək məqsədi yox idi. Bizim Azərbaycan-Ermənistan sərhədində hərbi məqsədimiz yoxdur. Təəssüf ki, şəhidlərimiz oldu. Şəhidlərimizə Allahdan rəhmət diləyir, ailələrinə və yaxınlarına başsağlığı veririk. Yaralananlar isə hərbi tibb müəssisələrində müalicə alırlar".

Müdafiə Nazirliyinin rəsmisi qeyd edib ki, hazırda Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində vəziyyət ordumuzun tam nəzarəti altındadır.

Polkovnik V.Dərgahlı onu da bildirib ki, düşmən təxribatının qarşısını alarkən hərbi qulluqçularımızdan yaralananlar da var: "Hazırda onların müalicələri davam edir. Bəzi KİV nümayəndələri yaralı hərbçilərimizə baş çəkmək istəyirlər. Pandemiya dövründə xəstəxanalara baş çəkmək qadağan olunub. KİV təmsilçilərinin bunu nəzərə almalarını xahiş edirəm".

"Hərbi əməliyyatların nəticəsi olaraq bildirmək istəyirəm ki, hazırda qoşunların təmas xəttində əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır. Görülmüş operativ tədbirlər nəticəsində Ermənistan ordusu layiqli cavabını aldı", - deyə Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı deyib.

Polkovnik V.Dərgahlı bildirib ki, düşmənin infrastrukturuna, canlı qüvvəsinə və hərbi texnikasına vurulan zərbələrin videogörüntülərinin cüzi bir hissəsi tərəfimizdən yayımlandı. "Xalqımız əmin olsun ki, Azərbaycanın əsgər və zabitlərinin qanı yerdə qalmadı. Düşmənə sarsıdıcı zərbələr endirildi", - deyə polkovnik V.Dərgahlı qeyd edib.

- Tovuz rayonu istiqamətində döyüşlərdə şəhid olan hərbi qulluqçuların ailələrinin hərtərəfli diqqətlə əhatə olunması və onlara yüksək qayğı göstərilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən konkret addımlar atılır. Bu günlərdə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığı ilə nazirliyin bir qrup ali rütbəli zabiti şəhid general-mayor Polad Həşimovun və şəhid polkovnik İlqar Mirzəyevin ailələrini ziyarət ediblər. Hər iki ailəyə Ali Baş Komandan tərəfindən onlar üçün ayrılan mənzillərin sertifikatları təqdim edilib. Bununla yanaşı, son döyüşlərdə şəhid olan bütün hərbi qulluqçuların ailələrinin qayğıları öyrənilir və onların həlli istiqamətində də addımlar atılacaq. Eyni zamanda, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırığına əsasən, Heydər Əliyev Fondu son döyüşlərdə şəhid olan hərbi qulluqçuların ailələrinə qayğı göstərilməsini nəzarətə götürüb.

**AZƏRTAC-ın materialları əsasında**

# Sazlar "Misri" üstə köklənir bu gün...

*Hər havacatın mahiyyət aşıladığı ovqat var. Sazın möcüzəsidi bu. Min illərdi belədi, əbədiyyətəcən belə olacaq... Şah İsmayıl Xətainin ordusu döyüşdən qabaq "Urfanı" ("Ruhani") dinləyərdi. Dinləmək nədi, "Urfanı"nı ruhuna köçürərdi, döyüşə (onda döyüşün bircə adı vardı: Qələbə) kökləyərdi. Təzənə simlərə dəyincə ürəklər coşardı, son xalları-gülləri əli qılıncının qəbzəsini sıxanları döyüşə uğurlayardı, döyüş ruhunu zəfərə kökləyərdi; "Urfanı" ("Ruhani") Vətən deyənlərə, torpaq deyənlərə "Zəfər sənin zəfərindi!" deyirdi. "Misri" üstə dinlədiyimiz bu ifa Tovuzda qələbə qazananlara da, şəhidlərin ruhuna da eyni kəlmələri deyir...*



Dədə Qorqud boy boylayırdı, soy soylayırdı. Hansı əsər olursa-olsun, ruhunda Dədə Qorqud zərrəsi varsa, könülə yatır. Dədə Qorqud şeiriylə ozanlığının birləşməsi olan bütün əsərlər ecazkar olur, Dədə öyüdü kimi dinlənilir...

Sonralar "Ruhani" yağı nəfəsinə, yağı nəfsinə, yağı həvəsinə qılınc sıyıranları "Misri"ləşdirib. Zaman-zaman aşıqlarımız "Qaraçı"dan "Misri"yə keçid edəndə toy damı lərzələnərdi. Bu, döyüş ruhuna dönərdi. El ağsaqqalı alnını ovuşdurub toybabasını süzsəydi, barmağını qara çırağa, sonralar otuzluq lampaya tuşlasaydı, əli qılınc tutanlar yağının sığındığı məkanlara yeriş edərdi, Koroğlu demiş, müxənnət ölkəsi talanardı...

Heç bir bəstəkar bəstəsi döyüş ruhunu saz qədərincə aşılamağa qadir deyil...

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani saza yaxşı bələddi. O da yaxşı bilir ki, döyüş ovqatını istənilən bəstə "Misri" qədərincə ifadə etməyə qadir deyil. Bu səbəbdən də neçə-neçə vətənpərvərlik mahnısının, hərbi marşın, odanın müəllifi kimi yeni şeirini sazın müşayiəti ilə ictimailəşdirib. Tovuz döyüşlərində şəhid olan general-mayor Polad Həşimova həsr etdiyi şeiri Aşıq Şəhriyarla Aşıq Elməddin "Misri" üstə oxuyur. Yox. Oxumurlar, Abdulla Qurbaninin yaşaya-yaşaya yazdığı qəhrəmanlıq odasını yaşaya-yaşaya oxuyurlar. Dinləyəndə bir anlığa mənə elə gəldi ki, Üzeyir bəyin "Koroğlu"sunun cazibəsindəyəm. Hər qəhrəmanın öz vaxtı olur. Qəhrəmanlığın isə yox. Qəhrəmanlıq xalqın tarixə göstərdiyi milli xarakteri ifadə edən sənəddi. Beyrək möhürlü bu sənəd xalqın qəhrəmanlıq tarixidi. Müxtəlif zamanlarda qəhrəmanlar o tarixi zənginləşdirib. Qarabağ döyüşlərinin qəhrəmanları da belə tarixlər yazıb. Yusif kimi, Vəzir kimi, Rasim kimi, Mübariz kimi, Çingiz kimi, ...

İyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədlərimizi pozaraq artilleriya və minaatanlarla hücuma cəhd etdi. Azərbaycan Ordusunun bölmələri bu qəfil hücumun qarşısını cəsarətlə aldı. Düşmənin neçə-neçə dayaq məntəqəsi, hərbi obyektləri dağıdıldı, neçə-neçə döyüş texnikası, onlarla zabiti, əsgəri məhv edildi. Məmləkətə 2016-cı ilin aprel, 2018-ci ilin may zəfərlərinin qürurunu, sevincini yaşadan ordumuz 2020-ci ilin iyul zəfərinin də qürurunu, sevincini yaşatdı. Azərbaycan əsgəri Ali Baş Komandanın döyüş əmriylə bu döyüşdə şəhid olanların ruhunu nigarançılıqdan Böyük Qələbəylə qurtaracaq. Şəhid general-mayor Polad Həşimovun ruhu da həmin gün göy üzünü bürüyən şükranlığın içindən baxacaq Cıdır düzünə, İsa bulağına. A.Qurbaninin bu şeiri general-mayor Polad Həşimova həsr olunsa da, ümumiləşmiş şeir kimi oxunur, çağırış kimi dinlənilir. Şəhidlərimizə həsr olunmuş əsərdi bu şeir. Ehtiramdı, sevgidi, bir də yerə-göyə sığışmayan vətənsevərlikdi. Qəhrəmanlığıyla tarix yazanlar, əlbəttə ki, Vətənin şöhrəti-şanıdı, əlbəttə ki, bütün vətənsevərlərin fəxridi. Bu fikir A.Qurbaninin misralarında da ifadə edilib. Fikir fəlsəfi-tarixi mahiyyəti ifadə edirsə, həm də poetik ülgüdə təqdim edilirsə, həm duyum üçündü, həm də düşüncələr üçündü. Bu şeiri Aşıq Elməddinlə Aşıq Şəhriyarın ifasında da belə dinlədim.

Şair "Uğur üstündədi Oğuz elləri" deyir. Aşıq bu fikri dinləyənlərə könüləyatımlı xallarla, güllərlə çatdırır. Bu fikir Ali Baş Komandanın döyüş əmrinin Böyük Qələbəylə tamamlanacağına inam kimi dinlənilir...

A.Qurbaninin şeirinin mahiyyəti bir qəhrəmanın (general-mayor Polad Həşimov) timsalında qəhrəmanların amalının şeiridi: Çıxsın Qarabağdan yadlar, yağılar! Misrada "çıxsın" ifadəsi işğalın sonlandırılmasının poetik dərkidi və şair istəyi xalqın istəyi kimi, "çıxsın" feli "çıxardacağıq" ifadəsinin məzmunu kimi anlaşılır. Buna görə şeir də, ifa da səsdən qopan çılğın bir haraya dönür. Bu gözəlim haray "Misri"nin çılğınlığında Böyük Qələbəyəcən kiriyən deyil...

Qəhrəmanlıq bu gün olur, sabahlar üçün yaşadılır. Tarix kimi, tarixə tarixi dərs kimi. Qəhrəmanlıqların mahiyyətində dünyəvilik də var.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda general-mayor Polad Həşimovun orduda çox böyük nüfuzu olduğunu, Aprel döyüşlərində rəşadət göstərdiyini xatırlatdı, onun qəhrəmanlıqla döyüşdüyünü xatırlatdı. A.Qurbaninin bu şeiri də, bu şeirin "Misri" saz havası üstə ifası da ölkə başçısının dediklərinin ədəbiyyatda da, incəsənətdə də inikası kimi dinlənilir: "...general Polad Həşimov orduda çox böyük hörmətə malik olan bir insan idi. Aprel döyüşlərində öz rəşadətini göstərmişdir. Mənim tərəfimdən iki dəfə yüksək dövlət ordeni ilə təltif edilmişdir. Mənim tərəfimdən ona general rütbəsi verilmişdir...

...Bizim bütün gənclərimiz qəhrəmanlarımıza oxşamalıdırlar. Onların həyatı, torpaq, Vətən uğrunda göstərdikləri şücaət, qəhrəmanlıq hər bir gənc üçün nümunə olmalıdır. Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib...". Bir qəhrəmana həsr edilən şeir, şeirin mahnılaşması ölkə başçısının kəlamının ifadəsi olursa, bu həm poeziyanın, həm incəsənətin, həm də bunların sintezi olmaq etibarilə vətənpərvərliyin təntənəsidir. Qəhrəmana xitabən "Heykəlin qəlblərdə ucalacaqdır" səmimiliyi də qəhrəmanlığa bağlı basmağın, qəhrəmanlığın milli mentalitetin tərkib hissəsi kimi təqdim etmə istəyinin ifadəsidir və zənnimcə, səmimidir, inandırıcıdır. Yeniyetmələr, çağırışçılar, ümumən gənc nəsil bir daha əmin olur ki, ordu quruculuğu da, şəhidlərə diqqət və qayğı da dövlət üçün prioritetdir...

Şeir klassik ədəbiyyatımızın mirvarisi kimi yaşadılan bayatıyla tamamlanır. Bayatılar həmişə xalqın istək və arzusundan yaranıb. Bu şeir də Abdulla Qurbaninin timsalında xalqın istək və arzusunu ifadə edir. Bu baxımdan şeirin bayatıyla tamamlanmasını Azərbaycan Ordusunun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin döyüş əmrini qələbəylə tamamlayacağına inamın poetik rəmzi bilirəm:

Əziziyəm, Ağdama,
Yollar gedir Ağdama.
Səni vuran yağının
Gözlərinə ağ dama!..

Bayatının son beyti "Səni vuran yağının gözlərinə ağ damacaqdır" fikrinin eynidir...

Bədii cəhətdən zəif şeiri hansı aşıq oxuyursa-oxusun, dinlənilmir. Tufarqanlı Abbasın "Duman, gəl-get bu dağlardan" misrasıyla başlayan gəraylısını hansı aşıq oxuyursa-oxusun, duyğulanırsan.. Abdulla Qurbaninin general-mayor Polad Həşimova həsr etdiyi şeir "Misri" üstə çox duyğusal dinlənilir. Aşıq Elməddinlə Aşıq Şəhriyar şəhid general-mayor Polad Həşimova həsr edilmiş şeiri sazın ecazkarlığıyla qəhrəmanın adına (və qəhrəmanlığına!) layiq səviyyədə ifa edir...

İfanı dinlədikcə əmin olursan ki, şeirdən "Misri"yə keçid edə bilən xalqın ruhu yaxın vaxtlarda "Misri"nin Cıdır düzündə ifa ediləcəyinə inanır. Bu şeir də, şeirin "Misri" üstə ifası da bu inamın işığıdı. Bu inam dünyəvi və bəşəri işıqdı. Qəhrəmanlıq milli dəyərlərimizdən olduğu üçün...

Şeirdə də, ifada da general-mayor Polad Həşimovun timsalında qəhrəmanlığın obrazı aydınlığıyla duyulur...

Həm ordu üçün, həm də xalq üçün qürurvericidir ki, sazlar "Misri" üstə köklənir bu gün...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birinin bütün şəxsi heyəti dəri-zöhrəvi xəstəliyə yoluxub.

Bölükdəki əsgərlərin ayaqlarında "göbələk" xəstəliyi aşkar edilib. Faktla bağlı komandanlığa məruzə edən Arman Hakopyanın sözlərinə görə baxımsızlıq, natəmizlik səbəbindən xəstəlik bütün şəxsi heyətə yayılıb. Hamam yox dərəcəsində, dərmanlar çatışmır. Şəxsi heyət tam tərkibdə digərlərindən təcrid edilib. Pandemiya dövründə üstəlik "göbələk" xəstəliyi də yayılan bölüyün komandiri "vaxtında tədbir görmədiyinə" görə cəzalandırılıb.

Koronavirus pandemiyası ilə bağlı tətbiq edilən karantin rejimindən ustalıqla yararlanan hərbi hissə komandanlığı faktı ictimaiyyətdən gizlədir.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində növbəti qeyri-döyüş itkisi qeydə alınıb.

İyulun 2-də axşam saatlarında işğalçı ordunun 1-ci alayının əsgərinin meyiti tapılıb. İlkin olaraq naməlum şəraitdə öldüyü barədə məruzə olunub. Lakin əsgərlər arasında söhbət gəzir ki, hələlik adı gizlədilən erməni əsgər şəxsi-qərəzlik zəminində digər əsgər tərəfindən öldürülüb. O da bildirilir ki, hadisədən xeyli müddət keçməsinə baxmayaraq, əsgərin valideynlərinə hələ də xəbər verilməyib.

Fakt ictimaiyyətdən gizlədilsə də, hadisə ilə bağlı cinayət işi açılıb, istintaq aparılır və əsgərin ölümündə kimlərin əli olduğu araşdırılır.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində nizamnamədənkənar münasibətlər zəminində daha bir cinayət hadisəsi törədilib.

İyulun 4-də əsgər yeməkxanasının Marine adlı işçisi müqaviləli hərbi qulluqçu tərəfindən döyülüb. Xörəklərin keyfiyyətinin aşağı olması və onun miqdarından gileylənən taborun feldşeri Murad Badalyanla Marine arasında mübahisə baş verib. Qadının təhqirlərindən təngə gələn M.Badalyan xanımı döyərək ona müxtəlif bədən xəsarətləri yetirib. Əsgər yeməkxanasının işçisi müayinə üçün tibb məntəqəsinə göndərilib.

Əgər M.Badalyan barəsində rəsmi şikayət olunarsa, o cinayət məsuliyyətinə cəlb olunacaq. Hələlik hadisə hüquq-mühafizə orqanlarından gizlədilir.

* * *

İşğal edilmiş Əsgəran rayonu ərazisində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin 7-ci dağatıcı alayının bölmələrindən birində xidmət edən iki hərbi qulluqçu minaya düşüb.

2018-ci ilin 2-ci yarısında hərbi xidmətə çağırılan əsgər Xoren Şağqulyan və Levon Hayriyan 136-cı postu tərk edərək, 132-ci postda xidmət edən və tərxis olunmağa hazırlaşan əsgərlərlə sağollaşmağa gedib.

Tez çatmaq üçün qısa yolla getmək qərarına gələn hərbi qulluqçular posta çatmağa 10-15 metr qalmış minaya düşərək müxtəlif dərəcəli bədən xəsarətləri alıblar.

Partlayış nəticəsində sol ayağından yaralanaraq hərbi hospitala göndərilən X.Şağqulyanın ayağı amputasiya olunub. Digər hərbi qulluqçu L.Hayriyan isə üz nahiyəsindən çoxlu qəlpə yarası alıb.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində yerlibazlıq zəminində daha bir cinayət hadisəsi baş verib.

Ermənistanın Artaşat şəhərindən çağırılan və işğalçı ordunun 4-cü taborunun 10-cu bölüyündə xidmət edən Artur Qriqoryan Qarabağ erməniləri tərəfindən döyülüb. Aldığı ağır zərbələr səbəbindən halı pisləşən erməni hərbi qulluqçusu A.Qriqoryan hərbi hospitala yerləşdirilib.

Faktla bağlı cinayət işi açılıb, hərbi polis tərəfindən araşdırma aparılır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

Azərbaycan milli mətbuatı - 145

# Mətbuat cəmiyyətin aynasıdır

*Azərbaycanda görkəmli ictimai-siyasi xadim, jurnalist Həsən bəy Zərdabinin rəhbərliyi ilə "Əkinçi" qəzeti 22 iyul 1875-ci ildə nəşr olunmağa başlayıb. Bununla da milli mətbuatımızın bünövrəsi qoyulub. Ölkəmizdə "Əkinçi" qəzetinin nəşr olunduğu gün Milli Mətbuat Günü kimi qeyd edilir.*

İlk milli mətbuatımızın işıq üzü görməsindən nə az, nə çox 145 il keçir.

Bununla əlaqədar olaraq dövlət başçısı Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda milli mətbuatımızın keçdiyi yola nəzər salınaraq bildirilir: "145 il əvvəl - 1875-ci il iyulun 22-də görkəmli ziyalı və maarifçi-publisist Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi və həmin dövr Azərbaycan ictimai-siyasi həyatının mühüm hadisəsi kimi tarixə düşmüşdür. Sonrakı illərdə çoxsaylı nəşrlərlə zənginləşən milli mətbuatımız Azərbaycan ədəbi dilinin və maarifçilik hərəkatının inkişafına əhəmiyyətli töhfələr vermiş, milli özünüdərk və istiqlal məfkurəsinin formalaşmasında, qabaqcıl ideyaların təbliğində böyük xidmətlər göstərmişdir."




İlk milli dövrü mətbu orqanın yaratmaq XIX əsrin ikinci yarısında maarifçilik bayrağını yüksəklərə qaldıran, bütün mənealərə sinə gərən mübariz jurnalist-publisist Həsən bəy Zərdabiyə nəsib oldu. Azərbaycan xalqının başına gələn bir çox bəlaların səbəblərini maarifin, elmin yoxluğunda, təhsilin məhdudluğunda görən böyük maarifçi ziyalının 1875-ci ildə "su altına qoyduğu daş" artıq əriməyə başladı, beyinlərə təsir etdi, çarizmin müstəmləkə siyasətindən əziyyət çəkən Azərbaycan xalqının hüquq və azadlıqları uğrunda mübarizəyə qalxdı. H.Zərdabi bütün yaradıcılıq əzmini, jurnalist mətanətini "Əkinçi"nin işıq üzü görməsinə səfərbər etdi. Həyat yoldaşı Hənifə xanım xatirələrində yazırdı: "Əkinçi"nin birinci nömrəsi çapdan çıxanda Həsən bəyin gözləri sevincdən yaşarmışdı. O, çox həyəcanlı bir halda evə gəldi. Bu onun həyatının ən xoşbəxt bir günü idi".

Ana dilində ilk milli qəzetin nəşri H.Zərdabinin həmfikirlərini, ziyalıları fərəhləndirdi. Qəzet bütün Rusiyada olan müsəlmanları hərəkətə gətirdi. "Əkinçi" maarifçi, demokratik ideyalar haqqında söhbət açdığı üçün tez bir zamanda hər tərəfə səs saldı. Qafqazın müxtəlif guşələrindən, Omskdan, Orenburqdan, Ufadan, Volqa boyundan, Krımdan və Dağıstandan təbriklər, məqalələr, abunələr gəlməyə başladı.

Şərqin böyük mütəfəkkiri Mirzə Fətəli Axundovun "Əkinçi"yə qayğısı xüsusilə qeyd olunmalıdır. Zərdabinin Rusiyada təhsil alan tələbələri Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və başqaları qəzetin nəşrini böyük sevinc və məhəbbətlə qarşıladılar. N.Vəzirov müəlliminə yazırdı: "Qəzetin ilk iki nömrəsini aldım. Mənə qəzetin proqramını göndərin. Hərçənd çətin olsa da, burada abunəçilər taparam."

Nəşrinin ikinci ilində qəzetin oxucu kütləsi daha da artır, müxbirlərinin sayı çoxalır. M.F.Axundov, Seyid Əzim Şirvani, N.Vəzirov, Ə.Gorani, Heydəri, Məmnun Əlqədari və Məhbus Dərbəndinin şeir, məqalə və xalqı maarifləndməyə, cəhalət yuxusundan ayılmağa çağırış edən məktubları qəzeti daha da oxunaqlı edir.

H.Zərdabi maarifçi-demokratik ideyaların carçısı və tribunası olan "Əkinçi"ni kəsərli ideya silahına çevirməyi bacarmışdı. Qırılmaz tellərlə mütərəqqi ideya mənbələrinə bağlanan "Əkinçi" bir tərəfdən Azərbaycanda maarifçi-demokratik ruhlu elm, ədəbiyyat nümayəndələrinin, digər tərəfdən inqilabçı demokratların, Avropa mütəfəkkirlərinin ədəbi-elmi və publisist irsindən, habelə şərq müdrikliyindən bəhrələnirdi.

"Əkinçi" geriliyə, cəhalətə, xürafata qarşı kəskin mübarizə aparırdı. Qəzet elmin, maarif və mədəniyyətin təbliği, mövhumat və cəhalətin tənqidi ilə kifayətlənməyib, feodal istismarına qarşı etiraz edir, xalqın malını-mülkünü mənimsəyən, onun hüquqlarını əlindən alan, insan şəxsiyyətini tapdalayan mövcud üsul-idarəyə etirazını bildirirdi.

Ana dilinin saflığı və milli publisistikanın formalaşmasında "Əkinçi"nin tarixi xidmətləri danılmazdır. N.Vəzirov Zərdabiyə yazırdı ki, "Əkinçi" mənim ana dili müəllimimdir. Bu sözlərdə böyük bir həqiqətin ifadə olunduğunu görürük. Qəzetin 1875-1877-ci illər ərzində 56 sayı çapdan çıxır.

"Əkinçi"nin bir qərinə əvvəl yandırdığı maarifçilik məşəli 1905-ci il inqilabının təsiri ilə doğulmuş mütərəqqi mətbuat orqanlarında yenidən parladı. Bu ideyaları təzə əsrin ibtidasında davam və inkişaf etdirən demokratik mətbuat nümunələrindən biri də ətrafına xalqımızın görkəmli şair və yazıçılarını, mütərəqqi ruhlu insanları Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əbdülrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi, Əli Nəzmi, Ömər Faiq Nemanzadə kimi məşhur ziyalıları toplamış "Molla Nəsrəddin" məcmuəsi idi.

"Əkinçi" və "Molla Nəsrəddin" öz dövrünün parlaq salnaməsidir. Bu mətbu orqanları fikrən, ideyaca çox yaxın olub. Mətbuat tariximizin səhifələrini vərəqləyərkən hər zaman səslənən bir fikri xatırlatmaq yerinə düşər: "Əkinçi"nin dövrün qulağına pıçıldadıqlarını "Molla Nəsrəddin" zamanın üzünə ucadan söyləmişdi".

"Əkinçi", sözün həqiqi mənasında, "Molla Nəsrəddin"in sələfidir. Mübaliğəsiz demək olar ki, "Əkinçi"dən "Molla Nəsrəddin"ə gedən yol zəngin mətbuat tariximizdə böyük bir mərhələnin başlanğıcı idi...

Qeyd edək ki, mətbuat tariximizdə hərb, müharibə mövzusu Azərbaycan Xalq Cümhuriyyəti dövründə nəşr olunan mətbu orqanlarında "Azərbaycan", "İstiqlal", "Açıq söz" qəzetlərinin səhifələrində daha geniş yer alıb.

Aprel işğalından sonra 1920-ci ildə Azərbaycan diviziyasının orqanı olan "Qızıl əsgər" qəzeti fəaliyyətə başlayır. Azərbaycan hərbi mətbuatının inkişafında xüsusi yeri olan bu qəzet 10 ildən çox nəşr edilir. Hərbi mətbuat nümunələrimizdən biri olan "Savadlı Qırmızı Əsgər" adlı ilk jurnal 1922-ci ildə Bakıda nəşr olunur. Ayda bir dəfə dərc olunan, hərbi qulluqçular üçün nəzərdə tutulan ictimai-siyasi, ədəbi-elmi məcmuə yeni yaranmış Azərbaycan diviziyasının orqanı kimi fəaliyyət göstərir. Jurnalın nəşr olunmasında əsas məqsəd əsgərlərin maariflənməsi, onların döyüş hazırlığı, silaha qulluq qaydaları haqqında və ədəbi-bədii mövzuda yazılar dərc etmək idi.

"Qızıl əsgər" adı ilə nəşrini davam etdirən bu mətbu orqanı sonralar general Əlağa Şıxlinskinin təklifiylə "Hərbi Bilik" adlanır. Jurnal hərbi elmi əsaslara və nəzəriyyəyə söykənərək məzmununda və tərtibatında yeniliklər edir.

Ötən əsrin 30-cu illərinin əvvəllərində bütün milli diviziyalar, bölmələr sovet ordusunun tərkibinə keçdiyindən hərbi mətbuat öz fəaliyyətini dayandırdı. Sovet ordusunun hərbi dairələrinin qəzetləri nəşrə başladı.

Azərbaycan öz dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra Azərbaycan Ordusunun formalaşdığı ilk gündən Qarabağ müharibəsinin ağır döyüşlərini və əməliyyatlarını öz səhifələrində işıqlandıran milli hərbi mətbuatımız yarandı.

1992-ci ilin fevralından nəşrə başlayan "Azərbaycan Ordusu" (əvvəlcə "Xalq Ordusu" adlanırdı) qəzeti, "Hərbi Bilik" jurnalı bu gün ordumuzun ən dəyərli müharibə, hərbi mətbuat salnaməsini yazan mətbu orqanlarıdır. Beləcə Azərbaycan kütləvi informasiya vasitələrində mühüm yer alan hərbi mətbuatımız ötən dövr ərzində böyük inkişaf yolu keçərək Qarabağ müharibəsinin döyüş salnaməsini səhifələrində qorudu və bu gün Azərbaycan Ordusunun aynası adını şərəflə daşıyaraq fəaliyyətini davam etdirir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə ordusunun iki əsgəri şəhid olub



Türkiyə ordusunun iki əsgəri PKK terrorçuları ilə atışmada həlak olub.

Hadisə Hakkari vilayətinin Çukurca rayonunda baş verib.

### Əfqanıstanda “Taliban”ın hücumu nəticəsində 13 hərbçi həlak olub



Əfqanıstanın Qunduz əyalətində "Taliban" hərəkatının hökumət qüvvələrinə hücumu nəticəsində azı 13 hərbçi öldürülüb, 10 nəfər isə yaralanıb.

İyulun 20-nə keçən gecə taliblər əyalətdəki nəzarət-buraxılış məntəqəsinə hücum ediblər. Daha bir hücum isə avtomobil yolunda qeydə alınıb. Döyüşlərdə "Taliban" silahlılarının da itki verdiyi bildirilir.

Qeyd edək ki, Əfqanıstanda sülh prosesinin başlamasına baxmayaraq "Taliban" hərəkatı ilə hökumət qüvvələri arasında qarşıdurma davam edir. Fevral ayının sonlarında Qətərdə ABŞ və "Taliban" hərəkatı 18 ildən çox davam edən müharibə ərzində ilk sülh sazişi imzalayıb. Sülh sazişi 14 ay ərzində xarici qüvvələrin ölkədən çıxarılmasını və əfqanlararası dialoqun başlamasını nəzərdə tutur. Həmçinin sənədə əsasən, "Taliban" hərəkatı və Əfqanıstan hökuməti arasında danışıqlar və atəşkəs rejimi başlanmalıdır.

### İranda terrorçu qruplaşma məhv edilib




İranın Fars və Kürdüstan vilayətlərində terror qruplaşmaları zərərsizləşdirilib.

Bu barədə İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) yaydığı açıqlamada deyilir. Qeyd olunur ki, Fars vilayətinin Şiraz şəhərində yaxalanan terrorçular İranda müxtəlif terror aksiyalarını həyata keçirmək üçün ölkəyə qeyri-qanuni yollarla daxil olublar.

Eyni məqsədlə Kürdüstana gələn terrorçular əməliyyat zamanı SEPAH-ın kəşfiyyat idarəsinin əməkdaşlarına silahlı müqavimət göstəriblər. Nəticədə 2 nəfər terrorçu məhv edilib.

Hazırda araşdırma aparılır. Terror qruplarının əlaqələri müəyyən edilir.

### Gürcüstan Silahlı Qüvvələrinin Əfqanıstandakı daha 10 hərbçisi koronavirusa yoluxub



Gürcüstanın Əfqanıstandakı sülhməramlı qüvvələrinin tərkibində xidmət edən daha 10 hərbi qulluqçusunda koronavirus aşkarlanıb.

Bu barədə Gürcüstanın Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilir ki, ümumilikdə Gürcüstanın Əfqanıstandakı hərbçilərindən 38 nəfərdə koronavirus aşkarlanıb. NATO-nun Əfqanıstandakı hərbi rəhbərliyinin qərarı ilə gürcü hərbçilər iki mərhələdə Gürcüstana gətiriliblər. Onlardan 28 nəfəri iyulun 10-da, qalan 10 nəfəri isə bir neçə gün sonra Almaniya Hərbi Hava Qüvvələrinin təyyarəsi ilə Tbilisiyə gətirilib.

Hərbçilərin vəziyyəti normal qiymətləndirilir.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Həsənov İlqar Ramiz oğluna və kiçik çavuş Gəncəliyev Əlizamin Eldar oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən materiallar geri qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 453
Nüsxə 3960